Azərbaycan Respublikasının Nazirlər Kabineti

**N 151** QƏRAR **Bakı şəhəri, 8 aprel 2016-cı il**

# "Azərbaycan Respublikası vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 82-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 721 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N10, maddə 866; 2006, N3, maddə 303, N5, maddələr 463, 468, N8, maddə 731, N9, maddə 822, N11, maddə 994; 2007, N1, maddə 50, N10, maddə 1021, N12, maddələr 1343, 1352; 2008, N2, maddə 130, N4, maddə 308, N10, maddə 936; 2009, N1, maddələr 22, 32, N2, maddələr 144, 150, N9, maddələr 736, 753; 2010, N4, maddə 369, N11, maddə 1048; 2011, N1, maddə 66, N4, maddə 365; 2012, N9, maddə 934; 2013, N8, maddə 1000, N10, maddə 1202; 2014, N1, maddələr 59, 69, N2, maddə 201, N5, maddə 557, N6, maddələr 745, 747, N9, maddə 1130; 2015, N2, maddə 227, N3, maddələr 328, 337, N6, maddələr 774, 781, N7, maddə 890, N11, maddə 1412; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 fevral tarixli 68 nömrəli qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Büdcə gəlirlərinin Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4.2.2.5.0-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.4.2.2.5.0. lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinə görə".

2. 1.4.2.2.5.1-ci yarımbənddə "Xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya)" sözləri və 1.4.2.2.5.2-ci yarımbənddə "Xüsusi razılıq (lisenziya) tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya)" sözləri "Lisenziya" sözü ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***